# “Milli yaddaşın suverenliyə çağırışı – soyqırımı və Qərbi Azərbaycan həqiqətləri”

Səbail Rayon İcra Hakimiyyətində “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Milli yaddaşın suverenliyə çağırışı – soyqırımı və Qərbi Azərbaycan həqiqətləri” mövzusunda panel iclası keçirilib.

Tədbirdə Səbail Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının nümayəndələri, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları, elm xadimləri, ziyalılar, rayonun idarə, müəssisə, təşkilat rəhbərləri və rayon ictimaiyyətinin nümayəndələri, rayon ərazisində yerləşən universitetlərin tələbələri iştirak ediblər.






## “Konstitusiya və Suverenlik İli” çərçivəsində panel iclas keçirilib

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək əziz xatirəsi ehtiramla yad edilib. Sonra tədbir iştirakçıları foyedə Qərbi Azərbaycanın mədəniyyəti, coğrafiyası və tarixi həqiqətlərini özündə əks etdirən fotolardan ibarət sərgi ilə tanış olublar.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub.

Çıxış üçün söz alan Milli Məclisin deputatı, beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai Azərbaycanın Konstitusiyasının qəbulu və suverenliyin əhəmiyyətinə toxunub. 30 illik işğaldan sonra Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsinə diqqət çəkən deputat Azərbaycan xalqının əzmini, mübarizliyini vurğulayaraq Qərbi Azərbaycan həqiqətlərinin dünyaya tanıdılmasının vacibliyini qeyd edib. Deportasiya ilə üzləşən Qərbi azərbaycanlıların öz torpaqlarına qayıdışının onların mənəvi hüquqları olduğunu bildirib.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı, filologiya üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərli deyib ki, Qərbi Azərbaycana qayıdış sıradan ideya deyil, Azərbaycanın milli ideologiyasının tərkib hissəsidir. Ulu Öndər Heydər Əliyevin Qərbi Azərbaycana qayıdış məsələsinə həssas yanaşdığını qeyd edən Ə.Ələkbərli Qərbi Azərbaycana qayıdış konsepsiyasının hazırlanmasından danışıb, bu ideyanın yayılması, təbliği istiqamətində silsilə tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb. İcma sədri deyib: “Ermənistanın siyasi rəhbərliyi unudur ki, Qərbi Azərbaycana qayıdış siyasi məsələ deyil, insan hüquqları məsələsidir. Elə bir beynəlxalq sənəd yoxdur ki, bu, insanların öz doğma torpaqlarına qayıdış hüququnu inkar etsin. Sonuncu deportasiya zamanı 300 minə qədər qovulmuş şəxsin taleyinə aydınlıq gətirilməlidir. Həmin şəxslər öz ata-baba torpaqlarına qayıtmalıdırlar, bu, qarşımızda duran əsas məsələlərdən birincisidir”.

Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri Misir Mərdanov Qərbi azərbaycanlıların ermənilərlə münasibətlərindən danışaraq həmin münasibətlərin əksinə olaraq ermənilərin azərbaycanlılara qarşı deportasiya apardığını qeyd edib. Azərbaycanın ərazi bütövlüyünü bərpa etdiyinə diqqət çəkən Misir Mərdanov Qərbi Azərbaycan İcmasının yaradılması tarixindən də söz açıb. İcmanın 2 il 4 ay ərzində əhəmiyyətli işlər gördüyünü diqqətə çatdıran M.Mərdanov Qərbi Azərbaycana qayıdışın labüd olduğunu, bu torpaqlara qayıdışın baş verəcəyinə inandığını vurğulayıb.

Sonra qədim və əzəli torpağımız olan Qərbi Azərbaycanda xalqımıza qarşı həyata keçirilmiş tarixi ədalətsizlikləri və gerçəklikləri əks etdirən sənədli videoçarx nümayiş olunub.

Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Kəmalə Həşimova çıxışında bildirib ki, bu gün Azərbaycan dövləti tarixi faktların beynəlxalq səviyyədə tanıdılması və milli maraqlarımızın qorunması üçün ardıcıl addımlar atır. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan qətiyyətli siyasət və regionda yaranan yeni geosiyasi reallıqlar bizə daha da güclü hüquqi və siyasi əsaslar qazandırır. Bu baxımdan, Qərbi Azərbaycana qayıdış məsələsi beynəlxalq hüququn tələbinə çevrilməlidir.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, Keşişkənd rayon İcmasının sədri, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova öz çıxışında Azərbaycanın son 30 il ərzində yaşadığı faciələrin o təhdidlərin sonsuzluğa qədər getməkdə israrlı olduğunu göstərdiyini bildirib. Professor qeyd edib ki, dünyanın və beynəlxalq təşkilatların susqunluğu fonunda bu sınaqdan keçməyin nə olduğunu hər birimiz yaxşı bilirik. Xalqımız Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Silahlı Qüvvələrimizin bəxş etdiyi Zəfəri unutmayacaq. Bu yolda canlarından keçən insanların əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaq.

Qərbi Azərbaycanda millətimizin heç vaxt silinməyəcək izləri barədə danışan Mahirə Hüseynova qeyd edib ki, istənilən bölgənin toponimikası özündə onu formalaşdıran xalqın maddi və mənəvi mədəniyyəti tarixinin ən mühüm mərhələləri haqqında məlumatları ehtiva edir. Hər bir onomastik faktın arxasında müxtəlif ekstralinqvistik amillər vasitəsilə ən müxtəlif assosiasiyaların xüsusi dairəsini yaradan tarixi və canlı reallıqlar var. Azərbaycanın təbii sərhədləri daxilində olan Qərbi Azərbaycan toponimlərinin XX əsrin 30-40-cı illərində elmi-tədqiqata cəlb olunan nümunələri bu regionda yaşayan insanlar qrupunun təsəvvüründəki linqvistik mənzərənin öyrənilməsində xüsusi yer tutması o reallıqlardan xəbər verir. Həmin reallıqlar azərbaycanlıların əsrlər boyu məskunlaşdıqları ərazilərdə Göyçə gölü, Göyçə və Dərələyəz dağ silsilələri, Zəngəzur dağları, Araz çayına birləşənə qədər geniş ərazilərdən keçib gələn Arpaçay sahilləri IX-X əsrlər iranlı coğrafiyaşünası Əbül-Qasim İbn Xordadbehin “Yollar və ölkələr haqqında kitab”ında, XII-XIII əsrlər ərəb tarixçi və coğrafiyaşünası Şahabəddin Yaqut əl-Həməvinin “Ölkələr haqqında lüğət”ində, XVI-XVII əsrlər alman səyyahı Adam Olearinin hazırladığı qlobusda, XVIII-XIX əsrlərdə yaşamış Rusiya tədqiqatçıları S.M.Bronevskinin “Qafqaz haqqında yeni coğrafi və tarixi məlumatlar”, XIX-XX əsr rus tarixçisi Y.A.Poxomovun “Azərbaycan tarixinin qısa kursu” və digər müəlliflərin əsərlərində boylanır. Bu reallıqlar- türk mənşəli toponimlər XIX əsrdə çar Rusiyasının sərhədlərinə daxil edilən ərazilərin əsl sahiblərini göstərir.

Professor bildirib ki, Qərbi Azərbaycan toponimlərinin müəyyən qisminin yer tapdığı Rusiya imperiyasının Tiflis şəhərində yerləşən Qafqaz Hərbi Dairəsi Hərbi Topoqrafiya bölməsi tərəfindən hazırlanaraq Sankt-Peterburq şəhərində çap edilən “Cənubi Qafqaz. 1903-cü il” xəritəsində geniş onomostik məkanı görürük.

Mahirə Hüseynova qeyd edib ki, Qərbi Azərbaycanda onomastik mənzərənin dəyişdirilməsinə ilkin cəhdlər XIX əsrin 20-ci illərindən - sonuncu Rusiya-İran müharibəsinin nəticələrinin yaratdığı siyasi ab-havanın davamı olaraq baş verdi. Regionun işğalı ilə Güney Qafqazın imperiya sərhədlərinə daxil edilməsini yekunlaşdıran imperator İrəvan xanlığının bazasında dini mənsubiyyətə hesablanan strateji dayaqlar yaratmağa başladı. Həmin vaxtdan keçən yüz il müddətində onomastik mənzərənin necə dəyişməsini 1930-cu il sentyabrın 9-da Ermənistan SSR-nin tərkibində yaradılan Abaran, daha sonralar Aparan və Araqats rayonu adlandırılan inzibati vahidin nümunəsində izləməyin maraqlı olduğunu söyləyən natiq bununla bağlı o dövrün real mənzərəsini tarixi faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırdı. Verilən məlumatdan aydın oldu ki,ümumilikdə 30 yaşayış məntəqəsinin adı 1978-ci il yanvar ayının 25-nə qədər birmənalı olaraq erməniləşdirildi və bununla da rayon ərazisindəki türk izlərinin silinməsi başa çatmış sayıldı.

Professor Mahirə Hüseynova Qərbi Azərbaycanın azərbaycanlıların əzəli dədə-baba torpağı olduğunu bir daha xüsusi vurğulayıb və tədbirdə çıxış edənlərin fikirlərində qeyd olunduğu kimi, coğrafi mövqe, tarixi miqrasiya reallıqları, toponimika və bir çox digər əlamətlərin Azərbaycanın bu yerlərin, onun tarixi və mədəni irsinin əsl sahibi olmasını sübut etdiyini deyib.

Tədbir Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini, Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Hikmət Babaoğlunun, Qərbi Azərbaycan İcması Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı, tarix üzrə fəlsəfə doktoru Məlahət İbrahimqızının, Qərbi Azərbaycan İcması Gənclər Şurasının və Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılovun “Qərbi Azərbaycana qayıdış”, “Qərbi Azərbaycan həqiqətlərinin təbliği” və s. mövzular ətrafında çıxışları ilə davam edib.